**Məmmədzadə İ.S.**♦

**UOT: 34**

# Azərbaycan cinayət hüququnda korporativ cinayət məsuliyyəti: mövcud modelin aydınlaşdırılması və onun tətbiq dairəsinin müəyyənləşdirilməsi

**Xülasə:** Məqalədə hüquqi şəxslər üçün cinayət məsuliyyətinin inkişafı və həyata keçirilməsi inkişaf edən korporativ idarəetmə kontekstində araşdırılır. Hüquqi şəxslər ənənəvi hüquq nəzəriyyələrinə görə cinayət məsuliyyətinə cəlb olunmurlar. Lakin müasir dövrdə mütəşəkkil cinayətkarlığın və korrupsiyanın artması bu yanaşmanın dəyişməsini zəruri etmişdir. Bu doktrinanın təhlili məhdudlaşdırıcı və geniş modellərin mövcudluğunu müəyyən edir. Azərbaycan Respublikası Cinayət Məcəlləsi hüquqi şəxslərin cinayətlərə görə məsuliyyətə cəlb edilməsi üçün qarışıq model qəbul etmişdir. Məqalədə dövlət qurumlarının cinayət məsuliyyətindən kənarda qalması və bu sahədə mövcud hüquqi boşluqlardan da bəhs edilmişdir. Əsas məsələlərdən biri beynəlxalq təcrübədən kifayət qədər istifadə edilməməsidir. Məqalədə hüquqi müəyyənliyi artırmaq və ədalətli hüquq sisteminin formalaşmasına töhfə vermək üçün beynəlxalq təcrübənin öyrənilməsi və həm kommersiya, həm də dövlət qurumları üçün məsuliyyət modellərinin hazırlanması tövsiyə olunur.

**Açar sözlər:** korporativ idarəetmə; cinayət məsuliyyəti; hüquqi şəxslər; ictimai institutlar; kommersiya hüquqi şəxsləri; restriktiv model; ekstensiv model.

## Giriş

Korporativ idarəetmənin inkişafı nəticəsində, hüquqi şəxslərin müstəqil subyekt kimi tanınmasının əsas üç prinsipindən biri olan "korporasiyaların məsuliyyətinin yalnız mülkiyyətləri ilə məhdudlaşması və nümayəndələrinin məsuliyyət daşımaması" prinsipi müasir dövrdə tədricən sıradan çıxmışdır [18, s. 393]. Bu proses əvvəlcə hüquqi şəxslərin nümayəndələrinin subsidiar məsuliyyətinin yaranması ilə başlamış, tədricən bir sıra ölkələrdə hüquqi şəxslərin inzibati məsuliyyətinin qəbul edilməsinə, daha sonra isə onların cinayət məsuliyyətinin subyekti olmasına qədər irəliləmişdir [33]. Onu da qeyd etmək lazımdır ki, cinayətin subyekti üçün ən sərt dövlət-hüquqi reaksiya olaraq cinayət məsuliyyətinin təsiri yalnız cinayət-hüquqi tədbirlərlə məhdudlaşmır; bu, mülki və inzibati sanksiyaların nəticələrindən qat-qat ağır olan işgüzar nüfuzun itirilməsi və gələcək maliyyə itkilərinə gətirib çıxara bilər [13, s.10].

Ənənəvi hüquq nəzəriyyəsində hüquqi şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi mümkün hesab edilmirdi, çünki nə Roma hüquqşünasları, nə də Orta Əsr hüquqşünasları, nə də ki onların Almaniya və Rusiyadakı davamçıları, eləcə də Sovet alimləri fiziki şəxs ilə hüquqi şəxsin hüquq və vəzifələrini eyni səviyyədə tutmamış və cinayət məsuliyyətinin əsas elementi olan təqsirliliyin hüquqi şəxslərə tətbiqini mümkünsüz saymışlar [15, s. 200-206]. Lakin Beloqrits-Kotlyarevski hələ ötən əsrin əvvəllərində vurğulamışdır ki, cinayət məsuliyyəti üçün tələb olunan şərtlər — cinayət əməlini törətmək istəyi və qabiliyyəti — hüquqi şəxsin fəaliyyətində də mövcuddur, çünki burada fiziki şəxslərin iradəsindən daha geniş və güclü maraqlar yer alır; bu, hüquqi şəxsin təqsirliliyini və məsuliyyətə cəlb edilmə imkanını artırır [12, s. 625].

♦ **Məmmədzadə İlhamə Siyafər qızı -** Bakı Dövlət Universiteti Cinayət prosesi kafedrasının dissertantı (Azərbaycan). E-mail: ilhama.19@mail.ru

Son onilliklərdə müasir cinayət tendensiyaları, xüsusilə hüquqi şəxslər tərəfindən mütəşəkkil cinayətkarlıq, korrupsiya, çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsi kimi ağır cinayətlərin törədilməsi, "hüquqi şəxslər cinayət törədə bilməzlər" (*societas delinquere non potest*) maksimasının yavaş-yavaş sıradan çıxması ilə nəticələnmiş [34, s. 927-945], korporativ strukturların mürəkkəbliyi və cinayət əməllərinin kollektiv şəkildə həyata keçirilməsi hüquqi şəxslərin də cinayət hüququnun subyekti kimi tanınmasını zəruri etmişdir. Məsələn, Fransa və Almaniya kimi ölkələrdə, bu prinsip uzun müddət hüquqi şəxslərə cinayət məsuliyyətinin tətbiq olunmasının qarşısını almışdır. Daha yaxın zamanlarda, Fransa və bir neçə digər Avropa ölkələri korporativ cinayət məsuliyyəti (KCM) konsepsiyasını üz qanunvericiliklərinə daxil etmiş, Almaniya isə direktorların və ya işçilərin hərəkətləri üçün korporasiyaları cinayətin subyekti olduğuna görə cəzalandırmağı rədd edib [34, s. 927-945].

Azərbaycan Respublikası da bu qlobal tendensiyaları nəzərə alaraq, 2012-ci ildə Cinayət Məcəlləsinə (bundan sonra CM) əlavə edilmiş "Hüquqi şəxslər barəsində tətbiq olunan cinayət-hüquqi tədbirlər" fəslinin [3] tamamlayıcı elementi kimi 2016-cı ildə CPM-ə "Hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat" adlanan LVI-I fəsli daxil etmiş [5], beləliklə, hüquqi şəxslərin öz xeyrinə və ya mənafeyinə fiziki şəxslər tərəfindən törədilən cinayət əməllərinə görə məsuliyyətə cəlb olunması mümkün olmuş [2], həmçinin bu CPM-in 8.0.6-cı maddəsinə əsasən, cinayət mühakimə icraatının vəzifələrindən birinə çevrilmişdir [4]. Bununla da, korporativ sferada törədilmiş hüquqpozmaların daha effektiv və ədalətli şəkildə həlli üçün hüquqi baza yaradılmışdır.

**I. Hüquqi şəxslərin cinayət məsuliyyətinin tarixi və hüquq sistemlərinin fərqli yanaşması**

Tarixən bir çox ölkələr, xüsusən də Roman-german hüquq sisteminə aid ölkələrin qanunvericiliyində hüquqi şəxslərin cinayət məsuliyyətini tanımasa da, korporasiyanın cinayət məsuliyyətinə cəlb oluna biləcəyi ideyası İngilis-sakson hüquq sisteminə aid ölkələrdə geniş şəkildə qəbul edilmişdir [20, s. 163-172].

XX əsrin əvvəlində təşkilati davranışa dair əhatəli anlayışın olmaması səbəbilə, hüquqi şəxslərin cinayət məsuliyyəti əsasən *respondeat superior* doktrinası əsasında həll olunurdu. Bu doktrinaya görə, agentin korporasiya adından hərəkət etdiyi hər bir halda, korporasiya işçinin cinayət əməllərinə görə məsul tutulmalıdır [24, s. 78-96]. Bu yanaşma korporativ davranışların həddindən artıq cinayətləşdirilməsinə yol açır, çünki fərdi işçilərin əməllərinə əsaslanaraq təşkilat məsuliyyətə cəlb edilir və təşkilatın qanunlara riayət etmək üçün apardığı təşəbbüslər nəzərə alınmır [24, s. 78-96]. XXI əsrdə vəziyyət dəyişmişdir və təşkilatların davranışını daha yaxşı başa düşmək üçün müasir sosial nəzəriyyələr və təşkilati nəzəriyyələr tətbiq edilməkdədir. Bu yeni paradiqma çərçivəsində, hüquqi şəxsin cinayət məsuliyyəti fərdi hərəkətə deyil, təşkilatın bütövlükdə qanunsuz davranışına əsaslanmalıdır. Bu baxımdan, hüquqi şəxsin adından hərəkət edən agentin hərəkətləri yalnız bu hərəkətlərin təşkilatın müəyyən bir münasibətini ifadə etdiyi hallarda əhəmiyyətli sayılmalıdır [24, s. 78-96].

Hüquqi şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi yalnız onların xeyrinə cinayət törədildiyi hallarda mümkündür. Cinayət Məcəlləsinə əsasən, hüquqi şəxs cinayətin deyil, cinayət məsuliyyətinin subyekti kimi çıxış edir [1]. Cinayətin subyekti, cinayət qanununda nəzərdə tutulan hərəkət və ya hərəkətsizliyi törədən və həmin əmələ və onun nəticələrinə qəsd və ya ehtiyatsızlıq formasında psixi münasibət göstərən şəxsdir ki, bu rolda yalnız fiziki şəxslər çıxış edir [11]. Burada

xüsusilə vurğulamaq lazımdır ki, bir sıra dövlətlər öz qanunvericiliyinə nümayəndənin törətdiyi əməlin şirkət üçün qaçılmaz olduğu hallarda hüquqi şəxslərin təqsirsiz hərəkət etməsinə dair tənzimləmə tətbiq etməyə başlayıblar [11].

Bu gün bir sıra beynəlxalq sənədlərə riayət etmək zərurətindən irəli gələn korporativ cinayət məsuliyyəti digər yurisdiksiyalarda və hüquq sistemlərində də geniş şəkildə qəbul edilir. Azərbaycan hüquq sistemində də hüquqi şəxslərin cinayət məsuliyyətinin müəyyən edilməsi, fiziki şəxslərin bu hüquqi şəxslərin maraqlarına qarşı törətdiyi cinayətlərin artması ilə əlaqədar olaraq, korrupsiya, mütəşəkkil cinayətkarlıq və çirkli pulların yuyulması kimi halların qarşısını almağa yönəlmişdir [1]. Bu məqsədlə, Avropa Şurasının 1999-cu il tarixli “Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında” Konvensiyasının 18-ci [10], həmçinin 1990-cı il tarixli “Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılması, aşkar olunması, götürülməsi və müsadirə edilməsi haqqında” Konvensiyanın 18-ci [9] və BMT-nin 2003-cü il tarixli “Korrupsiya əleyhinə” Konvensiyasının 19-cu maddələrinə [8] əsasən, eləcə də digər beynəlxalq-hüquqi sənədlərdə Tərəf Dövlətlərə hüquqi şəxslərə qarşı cinayət-hüquqi tədbirləri milli qanunvericiliyə daxil etmələri təşviq edilmişdir. Azərbaycan Respublikası da bu beynəlxalq aktlara qoşularaq, cinayət qanunvericiliyində hüquqi şəxslərə qarşı cinayət-hüquqi tədbirlərin tətbiqini nəzərdə tutmuş və belə tədbirlər Cinayət Məcəlləsinin 15-2-ci fəslinə daxil etmişdir [3].

Korporasiyalara qarşı cinayət təqibi, nadir hallarda baş verdikdə belə, adətən kiçik pozuntularla bağlı olur [28]. Maliyyə sektorundakı qanun pozuntuları daha çox maddi sanksiyalarla həll edilir, iş yerindəki ölüm halları ilə əlaqədar ittihamlar isə əksərən uğursuzluqla nəticələnir [22]. Transmilli korporasiyaların insan hüquqları pozuntularına görə məsuliyyətə cəlb edilməsi cəhdləri isə uzunmüddətli mülki məhkəmə proseslərinə gətirib çıxardığı üçün korporasiyalara qarşı cinayət təqibi təhdidinin əslində təsirsiz olduğu barədə bir təsəvvür formalaşmışdır [18].

Hüquqi şəxslərin cinayət məsuliyyətini müəyyən etmək, əsasən, süni bir varlıqda cinayət niyyətinin hansı formada aşkar edilməsi ilə bağlıdır [28]. Hüquqi şəxsin cinayət subyekti olaraq tanınması problemi fundamental bir çətinlikdir və məhkəmələr və qanunverici orqanlar arasında uzun müddət müzakirə edilmişdir.

ABŞ-də korporativ cinayət məsuliyyətinin təxminən bir əsrdir tanınmasına baxmayaraq, akademik diskursda Brikey, Vellinq, Beil kimi müasir tədqiqatçılar onun legitimliyini şübhə altına almış və onu alternativlərindən - korporasiyanın mülki məsuliyyəti və ya fərdi korporativ agentlərin cinayət məsuliyyətindən - daha zəif hesab etmişlər [32]. J. Arlen və R. Kraakman kimi müəlliflər isə mövcud korporativ cinayət məsuliyyəti anlayışlarını tənqid edərək, onların yenidən nəzərdən keçirilməsini tələb etmişlər [14]. P.H. Busi isə korporativ məsuliyyəti şirkətin "etos"una istinadən əsaslandırmağı təklif edərək, cinayət məsuliyyətini yalnız korporativ məqsədlərə, siyasətlərə və etoslara uyğun əməllərlə məhdudlaşdırmışdır [19]. ABŞ-də bu məsələ mübahisəli olduğu halda, Avropada vəziyyət fərqlidir: H.L. Bernsteyn kimi alimlər qeyd edirlər ki, Avropa uzun müddət korporativ cinayət məsuliyyətini tanımamış, lakin XX əsrin son rübündə bir çox Qərbi Avropa ölkələri bu məsuliyyəti tətbiq etmişlər [16, s. 587-606]. Bu ziddiyyətli tendensiyalar, J. B. Viener kimi müəlliflərin vurğuladığı kimi, korporativ cinayət məsuliyyətinin həm ABŞ, həm də Avropada fərqli hüquqi və sosial kontekstlərdə necə inkişaf etməsi ilə əlaqələndirilir [35, s. 207-253].

Azərbaycan Respublikasının qüvvədə olan Mülki Məcəlləsinin (bundan sonra MM) 43-cü maddəsinə əsasən, hüquqi şəxs qanunla müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçmiş, öz mülkiyyətində ayrıca əmlakı olan və bu əmlakla öz öhdəliklərinə görə cavabdeh olan, öz adından hüquqlar əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, həmçinin məhkəmədə iddiaçı və ya

cavabdeh kimi çıxış etmək hüququna malik olan bir qurumdur [6]. Cinayət məsuliyyətinin bu hüquqi şəxs anlayışına effektiv şəkildə tətbiq olunması və onun hüquqi şəxsin təbiətinə uyğunlaşdırılmasının təmin edilməsi üçün qanunvericiliyin təkmilləşdirilməsi zamanı xarici ölkələrin təcrübəsi təhlil olunsa, daha faydalı ola bilər. Məsələn, Avropa İttifaqının üzv dövlətlərində hüquqi şəxslərə qarşı tətbiq edilən qeyri-ənənəvi cəza tədbirlərindən bir neçəsi filialların bağlanması (Belçika və Rumıniya), dövlət maliyyələşdirilməsində (tenderlər, dövlət satınalmaları və subsidiyalar) iştirakın qadağan edilməsi (Fransa, Lüksemburq, Portuqaliya, Çexiya) və hökmün dərc edilməsi və ya ictimaiyyətə açıqlanmasıdır (Belçika, Xorvatiya, Litva, Polşa, Rumıniya, Sloveniya, Çexiya) [40]. Bu tədbirlər, hüquqi şəxslərin qanunsuz fəaliyyəti nəticəsində onların maliyyə mənbələrinə çıxışını məhdudlaşdırmaq, filiallarının fəaliyyətinə son qoymaq və cəmiyyət qarşısında məsuliyyət daşıdıqlarını nümayiş etdirmək məqsədini daşıyır. Bu cəza tədbirləri, hüquqi şəxslərin qanunlara uyğun davranışını təmin etməklə cəmiyyətin maraqlarını qorumaq və hüquqi şəffaflığı artırmaq üçün mühüm rol oynayır.

## II. Hüquqi şəxslərin cinayət məsuliyyətinin modelləri və Azərbaycan hüquq sistemində korporativ cinayət məsuliyyəti

### *1. Hüquqi şəxslərin cinayət məsuliyyətinin modelləri*

Doktrinada hüquqi şəxslərin cinayət məsuliyyəti ilə bağlı hüquqi şəxsin xeyrinə və maraqları naminə törədilən cinayət əməllərinə dair vahid yanaşma mövcud deyil. Müxtəlif nəzəriyyələr bu məsələni müxtəlif prizmalarla izah edir.

Bir tərəfdən, restriktiv modelə görə [20], hüquqi şəxsin cinayət məsuliyyəti fiziki şəxsin məsuliyyətindən törəyir [42], yəni hüquqi şəxs, onun adından hərəkət edən agent və ya işçinin cinayət əməllərinə görə məsuliyyət daşıyır. Bu modeldə, hüquqi şəxsin məsuliyyəti, işçinin vəzifə səlahiyyətləri daxilində və şirkətin xeyrinə törətdiyi əməllərə görə müəyyən edilir. Lakin bu sadə məsuliyyət forması, təşkilatın özündəki təqsiri mütləq şəkildə əks etdirmir və təşkilatın sistemli olaraq qanun pozuntularına yol verməsini nəzərə almadığı üçün problemli hesab edilir [42]. Qanunveriliyini bu modellə tənzimləyən dövlətlərə misal olaraq Fransa, Estoniya, Latviya, Lüksemburq, Malta və Çexiyanı misal göstərmək olar [42].

Digər tərəfdən ekstensiv model isə adından da göründüyü kimi, daha yüksək vəzifəli şəxslərin – kollegial (Direktorlar Şurası) və təkbaşçı icra orqanının (məsələn, direktor, Baş direktor, Baş İcraçı direktor, İcraçı direktor) digər rəhbər şəxslərin – davranışlarını birbaşa olaraq hüquqi şəxsin əməlləri kimi qəbul edir [42]. Bu model, hüquqi şəxsin məsuliyyətini müəyyən etmək üçün daha güclü bir əlaqə yaradaraq, rəhbər şəxslərin davranışlarını hüquqi şəxsin öz davranışı kimi identifikasiya edir. Bu yanaşma hüquqi şəxsin təqsirliliyini daha əhatəli şəkildə müəyyən etməyə imkan verir və təşkilatın qanunsuz davranışlarını daha dəqiq qiymətləndirməyi təmin edir [42]. Bu modeli tətbiq edən ölkələrə isə Belçika, Niderland, Sloveniya, Avstriya, Xorvatiya, İtaliya, Rumıniya və Slovakiyanı misal göstərmək olar [42].

Qeyd etmək yerinə düşərdi ki, A.R. Trandafir, bu iki modelin arasında yer alan üçüncü qarışıq bir modelin olmasına da diqqət çəkir; bu, hər iki model arasında kompromis bir həll kimi qəbul edilir və hüquqi şəxsin cinayət məsuliyyətinin, cinayətin həmin qurumda rəhbər vəzifə tutan bir şəxs və ya onun səlahiyyəti altında olan şəxs tərəfindən törədildiyi zaman, əgər əməl rəhbər orqanların nəzarət və ya təftişinin olmaması nəticəsində baş vermişdirsə, məsuliyyətə cəlb olunacağını nəzərdə tutur [42].

***2. Azərbaycan hüquq sistemində korporativ cinayət məsuliyyəti***

Yuxarıdakılara əsasən, qeyd edə bilərik ki, Azərbaycanın qüvvədə olan CM-də də hüquqi şəxslərin cinayət məsuliyyətinin müəyyən edilməsi prosesi kompleks şəkildə restriktiv və ekstensiv modelləri özündə birləşdirən qarışıq modelə əsaslanır. Belə ki, həmin məcəllədə hüquqi şəxslərin məsuliyyətinin müəyyənləşdirilməsində həm fiziki şəxslərin davranışlarının hüquqi şəxsə aid edilməsi, həm də yüksək səviyyəli nümayəndələrin hərəkətlərinin birbaşa hüquqi şəxsin davranışı kimi qiymətləndirilməsi nəzərdə tutulur [2]. Bu iki yanaşma arasında balans yaratmaq məqsədilə, AR CM-in 99-4.5-ci maddəsi hüquqi şəxsin xeyrinə və ya maraqları naminə törədilən cinayətlərə görə cinayət-hüquqi tədbirlərin tətbiqini müəyyən şərtlər daxilində tənzimləyir. Həmçinin, CM-in 99-4.2-ci maddəsi, hüquqi şəxsin məsuliyyətinin fiziki şəxslərin məsuliyyətini istisna etmədiyini vurğulayaraq, hər iki tərəfin müstəqil şəkildə məsuliyyət daşımasını təmin edir.

Hüquqi şəxslərə cinayət-hüquqi tədbirlərin tətbiqində onların hansı dairəyə ünvanlanacağı mühüm rol oynayır. MM-nin 43.5-ci maddəsinə uyğun olaraq, hüquqi şəxslər kommersiya, qeyri-kommersiya və publik hüquqi şəxslər olaraq təsnif edilir. Aydındır ki, ilk növbədə kommersiya hüquqi şəxsləri nəzərdə tutulur, çünki onlar iqtisadi sahədə ən çox sayda olanlardır [43, 44, 45] və dolayısı ilə fəaliyyətləri nəticəsində cinayətlərin törədilməsinə ən çox meylli olanlardır [42].

**III. İctimai institutlara münasibətdə cinayət məsuliyyətinin tətbiq dairəsi**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 99-4.4-cü maddəsinə əsasən, dövlət, bələdiyyələr və beynəlxalq təşkilatlar cinayət-hüquqi tədbirlərin tətbiqinə cəlb edilə bilməzlər. Bu istisnalar bir çox ölkələrin cinayət qanunvericiliyində mövcuddur. Məsələn, Fransa Cinayət Məcəlləsinin 121-2-ci maddəsi də dövləti istisna edir [39]. Lakin onu da qeyd edək ki, Azərbaycan qanunvericiliyindən fərqli olaraq, Fransa qanunvericiliyi müəyyən hallarda bələdiyyələrin də məsuliyyətə cəlb edilə biləcəyini qeyd edir [39]. Bu tədbir bələdiyyələrin yaratdığı hüquqi şəxslərin məsuliyyətdən yayınması hallarının qarşısını almağa hesablanıb ki [39], bu da müxtəlif ölkələrin hüquqi şəxslərin cinayət məsuliyyətinə yanaşmalarında fərqliliklərin olduğunu göstərir.

Beləliklə, hüquqi şəxslərin cinayət məsuliyyətinə cəlb olunması məsələsində xüsusi hüquqa və ictimai hüquqa aid hüquqi şəxslər arasında fərq qoyulur [41, s. 406-411]. Xüsusi hüquqi şəxslər - şirkətlər və digər özəl hüquqi şəxslər - cinayət məsuliyyətinə cəlb edilə bilərlər. İctimai institutlara (*Müəl.* bu yazı kontekstində ictimai institut dedikdə - dövlət, publik hüquqi şəxslər, bələdiyyələr və beynəlxalq təşkilatlar nəzərdən keçiriləcək) - gəldikdə isə, vəziyyət fərqlidir. AR CM-in 99-4.4-cü maddəsində nəzərdə tutulan tənzimləmə ictimai institutların cinayət məsuliyyətinə dair məsələləri tam əhatə etmir və burada boşluqlar mövcuddur.

***1. Dövlətin cinayət məsuliyyətinin subyekti ola bilməməsi***

Dövlətin cinayət məsuliyyəti məsələsinə gəldikdə, dövlətlərin əksəriyyəti dövlətin cinayət məsuliyyətindən immuniteti həllini qəbul etmişdir; müəyyən edilmiş çoxsaylı arqumentlərdən biri də budur ki, əgər əksi olsa, dövlət praktiki olaraq özünü cəzalandırmış olardı [31, s. 44]. Lakin onu da qeyd etmək istərdik ki, dövlətin cinayət məsuliyyətindən immunitetə malik olmadığı Belçika və Finlandiya kimi dövlətlər də mövcuddur [37, s. 53-70]. Dövlətin cinayət məsuliyyətinə cəlb oluna biləcəyi bu yurisdiksiyalarda dövlət, istər ictimai, istərsə də özəl hüquqi şəxslər kimi, əgər əməllər dövlət hakimiyyətinin həyata keçirilməsi zamanı törədilməyibsə, cinayət məsuliyyətinə cəlb oluna bilər [29].

***2. Publik hüquqi şəxslərə münasibətdə cinayət hüquqi tədbirlərin tətbiqi***

Azərbaycan CM publik hüquqi şəxslərə münasibətdə cinayət-hüquqi tədbirlərin tətbiq oluna bilib-bilməyəcəyinə dair məsələni açıq qoymuş, bunu tənzimləməmişdir. Müqayisə üçün qeyd edək ki, Estoniya Cinayət Məcəlləsinin 14-cü maddəsi ilə dövlət, beynəlxalq təşkilatlar, yerli özünüidarəetmə orqanları ilə yanaşı, publik hüquqi şəxslərin də cinayət məsuliyyətinin subyekti olması istisna olunub [21]. Bu yanaşmanın məntiqi publik hüquqi şəxslərin dövlət hakimiyyətini həyata keçirməsi ilə bağlıdır. Yəni, dövlət hakimiyyətinin səlahiyyətlərini yerinə yetirən qurumların cinayət məsuliyyətinə cəlb olunması dövlətin suverenliyinə və funksiyalarına təsir göstərə bilər [21]. Beləliklə, Estoniya qanunvericiliyi bu qurumların cinayət məsuliyyətindən kənarda qalmasını təmin edir.

Digər ölkələrdə də bu məsələ dövlət hakimiyyətinin həyata keçirilib-keçirilməməsi prizmasından dəyərləndirilir. Məsələn, Çexiyada yerli hakimiyyət orqanları dövlət hakimiyyətindən artıq istifadə etdikləri fəaliyyətlərə görə məsuliyyət daşıyırlar, lakin dövlət hakimiyyətinin həyata keçirilməsi zamanı törədilən əməllərə görə cinayət məsuliyyətindən azaddırlar [30, s. 704]. Xorvatiyada inzibati-ərazi dairələri, hakimiyyət orqanları və ictimai institutlar, əgər onlar dövlət hakimiyyətini həyata keçirmədikləri fəaliyyətlərdə cinayətlər törədirsə, cinayət məsuliyyətinə cəlb oluna bilərlər [26]. Lüksemburqda isə Cinayət Məcəlləsinin 34-cü maddəsinə əsasən, imunitet yalnız dövlətə aiddir; inzibati-ərazi vahidləri və publik hüquqi şəxslər cinayət məsuliyyəti daşıyırlar.

Əksinə, bəzi dövlətlərdə nə hakimiyyət orqanları, nə də digər publik hüquqi şəxslər cinayət məsuliyyəti daşımırlar. Məsələn, Estoniya kimi və ya imunitetin konstitusiya əhəmiyyətli subyektlərə doğru genişləndirildiyi İtaliya kimi ölkələrdə bu yanaşma tətbiq edilir [42]. Rumıniyada Cinayət Məcəlləsinin 135-ci maddəsinə əsasən, publik hüquqi şəxslərin təqsirsizliyi genişləndirilmişdir; bu yanaşmaya görə, bu cür qurumlar özəl sektorun predmeti ola bilməyən fəaliyyətlərin həyata keçirilməsi zamanı törədilən cinayətlərə görə cinayət məsuliyyəti daşımırlar [42]. Fransa nümunəsi də oxşardır; burada dövlətlə yanaşı, imunitetdən ərazi birlikləri və qruplar da yalnız ictimai xidmətlərin nümayəndəlik müqavilələrinin predmeti ola bilməyən fəaliyyətlərin həyata keçirilməsi zamanı törədilən cinayətlər kontekstində faydalanır [42].

Bu kontekstdə diqqətçəkən nümunələrdən biri də İspaniyadır; burada regional və ya institusional dövlət hakimiyyəti orqanları, tənzimləyici orqanlar, agentliklər və ya dövlətə məxsus biznes subyektləri, beynəlxalq hüquq təşkilatları və ya dövlət hakimiyyəti tərəfindən verilmiş suverenlik səlahiyyətlərini həyata keçirən digər subyektlər ümumiyyətlə cinayət məsuliyyəti daşımırlar [42]. Lakin əgər məhkəmə həmin hüquqi şəxsin cinayət məsuliyyətindən yayınmaq məqsədilə yaradıldığını müəyyən edərsə, o zaman bu qurum da cinayət məsuliyyətinə cəlb oluna bilər [42].

Beləliklə, publik hüquqi şəxslərə cinayət-hüquqi tədbirlərin tətbiqi məsələsi ölkələrin hüquqi sistemlərində fərqli şəkildə həll olunur və əsasən dövlət hakimiyyətinin həyata keçirilib-keçirilməməsi ilə bağlıdır. Azərbaycan qanunvericiliyində bu sahədə dəqiq tənzimləmələrin olmaması praktikada suallar yarada bilər və beynəlxalq təcrübənin öyrənilməsi bu məsələnin həllinə töhfə verə bilər. Məsələn, Rumıniya nümunəsi bu məsələnin həllində faydalı ola bilər. Rumıniyada yeni Cinayət Məcəlləsi ictimai institutların cinayət məsuliyyətinə dair yanaşmanı dəyişmişdir. Əvvəlki tənzimləmədə ictimai institutlar, özəl sektorun predmeti ola bilməyən fəaliyyətləri həyata keçirdikləri zaman ümumi cinayət immunitetinə malik idilər. Lakin doktrinada bu yanaşma tənqid olunurdu, çünki cinayətin törədildiyi fəaliyyətin təbiətinin nəzərə alınması daha ədalətli hesab edilirdi [42].

Yeni qanunvericilikdə Rumıniya ictimai institutların cinayət immunitetini daraltmışdır. İmmunitet artıq ümumi deyil və yalnız dövlət hakimiyyətinin səlahiyyətlərini həyata keçirdikləri, yəni özəl sektorun məşğul ola bilməyəcəyi fəaliyyətlər zamanı törədilən cinayətlərə aiddir. Əgər ictimai institut özəl sektorun da məşğul olduğu bir sahədə cinayət törədirsə, o zaman cinayət məsuliyyətinə cəlb oluna bilər [42].

Bu yanaşma Azərbaycanda da tətbiq oluna bilər. Azərbaycan qanunvericiliyindəki publik hüquqi şəxs institutu nisbətənRumıniya nümunəsinə uyğun olduğundan, bu cür hüquqi şəxslərin cinayət məsuliyyəti məsələsi dövlət hakimiyyətinin həyata keçirilib-keçirilməməsi meyarına əsaslanaraq tənzimlənə bilər. Yəni, publik hüquqi şəxs dövlət hakimiyyəti səlahiyyətlərini həyata keçirmədiyi bir sahədə cinayət törədibsə, cinayət məsuliyyətinə cəlb olunmalıdır.

Bu yanaşma hüquqi müəyyənliyi artırar və ictimai institutların qanun qarşısında bərabərliyini təmin edər. Məsələn, əgər bir dövlət xəstəxanası ehtiyatsızlıqdan bədən xəsarətinə səbəb olarsa, və bu fəaliyyət özəl sektorun da məşğul olduğu bir sahəyə aid olarsa, xəstəxana cinayət məsuliyyətinə cəlb edilə bilər. Beləliklə, Azərbaycan qanunvericiliyində ictimai institutların cinayət məsuliyyətinə dair dəqiq tənzimləmələrin aparılması zəruridir. Rumıniyanın təcrübəsindən istifadə edərək, ictimai institutların dövlət hakimiyyəti səlahiyyətlərini həyata keçirmədikləri fəaliyyətlərdə törətdikləri cinayətlərə görə məsuliyyət daşımasını qanunla təmin etmək mümkündür. Bu, hüquqi boşluqları aradan qaldırar və ədalətli hüquq sisteminin formalaşmasına töhfə verər.

### *3. Bələdiyyələrin cinayət məsuliyyətinin subyekti olub-olmaması məsələsi*

Bələdiyyələrin korporativ cinayət məsuliyyətinin mövcud olub-olmaması ilə bağlı doktrinada geniş müzakirələr mövcuddur. Ralph E. Boches-in qeyd etdiyi kimi [17, s. 218-223], bələdiyyələrin hətta delikt məsuliyyətindən azad olması bir çox hallarda onların dövlətin bir hissəsi kimi qəbul edilməsindən irəli gəlir və bələdiyyələrin dövlət funksiyalarını yerinə yetirərkən suveren toxunulmazlıqdan yararlandığına əsaslanır. Boches bələdiyyə immunitetini üç əsas arqumentlə izah edir: 1. Bələdiyyələr dövlətin bir hissəsi kimi suveren immunitetə malikdirlər; 2. Dövlət, bələdiyyə yox, dövlət funksiyalarını yerinə yetirən işçilərin əsas işəgötürəni hesab olunur; 3. Şəxsi iddialar səbəbilə bələdiyyə fondlarının tükənməsinin qarşısını almaq üçün bu immunitet vacibdir.

Lakin Boches qeyd edir ki, bələdiyyələrin maliyyə çöküşündən qorunması və zərərçəkmiş şəxslərə kompensasiya təmin edilməsi arasında balans yaratmaq üçün bələdiyyələr üçün məsuliyyət sığortasının genişləndirilməsi daha ədalətli həll yolu ola bilər. Bu yanaşma bir çox ölkələr tərəfindən qəbul edilərək qanunvericiliyə daxil edilmiş və beləliklə, bələdiyyələr dövlətin bir uzantısı kimi fəaliyyət göstərdiklərində müəyyən immunitetə malik olmuşlar. Azərbaycan Cinayət Məcəlləsinin 99-4.4-cü maddəsində də bu yanaşma öz əksini tapır və bələdiyyələrin cinayət-hüquqi tədbirlərə cəlb edilməməsini nəzərdə tutur.

Lakin, bələdiyyələrin korporativ məsuliyyətinin tamamilə rədd edilməsi ilə razılaşmaq hər zaman mümkün deyil. Bu fərq getdikcə daha çox tənqid olunur. Məsələn, ABŞ məhkəməsi *Hargrove v. Town of Cocoa Beach* (1957) [25] işində bu fərqi ləğv edərək, bələdiyyələrin, funksiyanın növündən asılı olmayaraq, işçilərinin səhlənkarlığına görə məsuliyyət daşıdıqlarını bildirmişdir.

"Bələdiyyələrin statusu haqqında" AR Qanunun 34-cü maddəsi bələdiyyələr təsərrüfat fəaliyyəti ilə və qanunvericiliklə qadağan edilməmiş başqa fəaliyyətlə məşğul olmaq üçün müstəqil hüquqi şəxslər yaratmağa imkan verir [7], ki bu da fəaliyyətdən gələn hüquqi məsuliyyətin bələdiyyə adı ilə kənarda tutulması, hüquqi müəyyənlik prinsipinə zidd ola bilər. Hüquqi müəyyənlik prinsipi tələb edir ki, hər bir hüquqi subyektin davranışlarının nəticələri əvvəlcədən

bilinsin və proqnozlaşdırıla bilsin. Hazırkı qanunvericilik isə bələdiyyələrin yaratdığı hüquqi şəxslərə münasibətdə bu məsuliyyət məsələsini kifayət qədər dəqiqliklə tənzimləmir.

Bu mənada, Azərbaycan Cinayət Məcəlləsinin hazırkı mövqeyi – yəni bələdiyyələrin cinayət məsuliyyətinə cəlb edilməməsi – müəyyən hallarda dəstəklənə bilər. Bələdiyyələrin dövlətin bir hissəsi kimi toxunulmazlıq hüququndan istifadə etməsi onların cinayət-hüquqi tədbirlərə cəlb edilməməsini haqlı göstərə bilər. Bununla belə, bələdiyyələrin yaratdığı hüquqi şəxslərə münasibətdə məsuliyyət məsələsinin açıq və dəqiq şəkildə tənzimlənməsi vacibdir. Biz bu yanaşmanı dəstəkləyirik ki, bələdiyyələrin korporativ cinayət məsuliyyətinin subyekti olmaması prinsipial olaraq qəbul edilməlidir. Lakin, bələdiyyələrin yaratdığı hüquqi şəxslər üçün bu məsuliyyətin necə tətbiq ediləcəyi açıq şəkildə qeyd olunmalıdır.

